# “Xarıbülbül” festivalının bərpası dünyada böyük əks-səda yaradıb



***2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə şanlı və əbədi yaddaqalan bir gün kimi yazıldı. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz ordumuz tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, İkinci Qarabağ müharibəsində 44 gün ərzində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə, strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, demək olar ki, taleyinə əsaslı təsir göstərdi. Bu qələbə hərb meydanında olduğu kimi, diplomatiya sahəsində də uğurlarımızın pik nöqtəsi oldu.***

Şuşa indi azad nəfəs alır, tədricən keçmiş şöhrətinə qovuşur. Yaxın illərdə əvvəlkindən də cəlbedici olacaq. Dövlət başçımızın göstərişi ilə artıq şəhərdə tarixi abidələrin, yolların, kommunikasiya xətlərinin, ümumiyyətlə, bütün infrastrukturun bərpası və yenilənməsi ilə bağlı mühüm işlər görülməkdədir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə görülən işlər Şuşanın yenidən mədəniyyət beşiyi olaraq, dünya mədəni irsinə sanballı töhfədir. Qısa zamanda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri beynəlxalq aləmin diqqətini Şuşaya yönəldib. Artıq bu qədim şəhər beynəlxalq təşkilatların öz tədbirlərini keçirdikləri məkana çevrilib.

Şuşa şəhərində və digər Qarabağ bölgələrində keçirilən beynəlxalq musiqi festivalı 30 illik fasilədən sonra yenidən bərpa olundu. Nəhayət, 2021-ci il mayın 12-də doğma Şuşanın səmasında illər əvvəl olduğu kimi, yenidən “Qarabağ şikəstəsi” səsləndi. Bununla da uzun illərdən sonra “Xarıbülbül” Beynəlxalq Müsiqi Festivalına start verildi. Söz yox ki, indiyə qədər Şuşada Vaqif Poeziya Günləri, dünya azərbaycanlılarının qurultayı, parlamentin komitə iclasları, müxtəlif beynəlxalq görüş və konfranslar keçirilib. Ancaq “Xarıbülbül” beynəlxalq musiqi festivalının özgə hüsnü var.

V “Xarıbülbül” Beynəlxalq Folklor Festivalının açılışında möhtərəm Prezidentimiz İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı böyük coşqu ilə qarşılanıb. “Qafqazın konservatoriyası” olan Şuşada ecazkar muğamın, könüllər oxşayan Azərbaycan mahnılarının və müxtəlif xalqların musiqilərinin əsl təntənəsi yaşanır. Bu dəfə də Şuşa özünə qayıdan müasir siması, Cıdır düzünü bəzəyən ecazkar muğamı ilə birgə müxtəlif xalqların musiqisinə, mədəniyyətinə və onun görüşünə gələn qonaqları ilə dünyaya səs salıb.

“Xarıbülbül” festivalında 10 xarici ölkədən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilərin, rəqs kollektivlərinin, həmçinin, Azərbaycanın müxtəlif regionlarından olan folklor qruplarının mədəniyyət paytaxtımızı öz musiqi töhfələri ilə salamlamaları tədbirin reytinqini daha da yüksəldib.

Xatırladaq ki, 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şuşanın azad olunması münasibətilə xalqa müraciətində demişdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçəldiləcək və özünün əvvəlki şöhrətini qaytaracaq. V “Xarıbülbül” Beynəlxalq Folklor Festivalının keçirilməsi möhtərəm Prezidentimizin həmin fikirlərinin əyani təsdiqidir.

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı***